# Azərbaycan Xalq Parlamenti

**Address:** 169 63 Solna, Sweden **Phone:** +4915205921770 **e-mail:** info@azxp.org
**Web:** www.azxp.org

## Azərbaycan Xalq Parlamenti Sədrinin

## QƏRARI

Azərbaycan Xalq Parlamentində millət vəkili kimi fəaliyyət göstərən Hüseyin Pursüleymanın özünün və ya valideynlərinin birinin Azərbaycan vətəndaşı olması barədə AzXP Rəyasət Heyətinin Seçki Komissiyasına göndərdiyi 25.11.2025 tarixli sorğuya mənfi cavab gəldiyindən;

Hüseyin Pursüleyman barəsində Azərbaycan Xalq Parlamenti Nizamnaməsinin 1.1 və 4.4.2-ci maddələrinin tələbləri pozulduğuna görə Reqlamentinin 24.3.6-cı maddəsini rəhbər tutaraq

## QƏRARA ALIRAM:

1. İran İslam Respublikasının vətəndaşı Hüseyin Pursüleymanın mandatı etibarsız elan edilsin.
2. Hüseyin Pursüleyman “AzXP Millət Vəkilləri” və “Elanlar” qrupundan xaric edilsin.
3. Hüseyin Pursüleymana aid bütün informasiya azxp.org saytından silinsin.
4. Seçki Komissiyasının tam tərkibinə AzXP Nizamnaməsinin tələblərini kobud surətdə pozduğuna görə xəbərdarlıq elan edilir.
5. Parlament Sədrinin sorğusuna etinasızlıq göstərərək kobud rəftarına görə Seçki Komissiyasının üzvü Oqtay Ömərova töhmət elan edilir.
6. AzXP Seçki Komissiyasının üzvlərinə, işlərinə daha ciddi yanaşmaq, belə səhvləri təkrarlamamaq tapşırılsın.
7. Millət vəkillərinin seçkiləri ilə bağlı ətraflı yoxlamalar aparmaq məqsədilə, bu günədək toplanan seçki materialları AzXP Seçki Komissiyası tərəfindən RH-nə təqdim edilsin.

8. Seçki Komissiyasının bütün sənədlərinin habelə namizədlərin qeydə alınması zamanı tələb olunan sənədlərin yoxlanılması üçün xüsusi İşçi Qrup yaradılsın.

Xatirə Cəbrayılova

**Azərbaycan Xalq Parlamentinin Sədri**

27.11.2025